# Vətənin azadlıq salnaməsinə adını yazan lerikli İdrət Abdulov...

**Lerik rayonunun ucqar dağ kəndi olan Orandda dünyaya göz açan İdrət İbi oğlu Abdulovu Vətənə, doğma torpağa bağlılığı, qanına ana südündən hopan vətənpərvərlik duyğuları bütün Azərbaycana tanıtdırdı.**



İndi xalq ona oğul deməklə öyünür. İdrət Vətənin haqq savaşında yağı düşmənə məzar qazmaqla əzəli yurdumuz Qarabağ torpağının azadlıq salnaməsinə 19 yaşında adını yazmaqla şərəfli bir həyat yaşadı. Şəhidlik zirvəsinə ucalaraq yurdunun nur saçan Günəşinə çevrildi...

İdrət hələ kənd orta məktəbdə oxuduğu vaxt ağıllı, həyata baxışı ilə insanların ürəyinə nüfuz etməyi bacarır. Qəlbi sevdalı, məhəbbətli yeniyetmə təhsilini başa vurub 2019-cu ildə həqiqi hərbi xidmətə gedir. Tərtər rayonunda Vətəninin keşiyində durur. Çətində nə ölümdən qorxur, nə də düşməndən. İdrət canından əziz bildiyi yurdunun, torpağının şərəfini qorumağı bacarır, xidmət etdiyi hərbi hissədə əsl vətəndaş, mənəvi cəhətdən yetkin gənc, Vətənə sədaqətli əsgər kimi tanınır, daim adı öndə çəkilir. Bütün bunlarla bərabər İdrət qarşıdakı müharibədən xəbərsiz olsa da, içində bir hiss onu erməni dığalardan qisas almağa çağırır. Və Qarabağın bir qarışı da düşmən ayaqları altında qalmasın deyə canını qurban verməyə hazır olur.

2020-ci ilin sentyabrın 27-də Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı yeni hərbi təcavüzə başlayır. İdrət minlərlə qeyrətli oğullara qoşulub dığalardan qisas almaq hiss ilə Vətən uğrunda müharibəyə qoşulur. Ordumuzun apardığı uğurlu hərbi əməliyyatlarda həmişə öndə gedir və döyüş zamanı cəsarəti, qəhrəmanlığı düşmən göz dağı olur. 32 gün ağır müharibə meydanlarında yağıya ciddi itkilər verir. Vətənini canından artıq sevən İdrət 29 oktyabrda dığaların gülləsinə tuş gəlir. Ürəyi dayansa da, hünəri şanlı zəfərimizə doğru gedən yolda əsgər yoldaşlarında böyük inam, qələbə əzmi yaradır...

İndi bütün Lerik camaatı İdrəti əsl övlad sevgisi ilə yad edir, onu özünə Vətənə, torpağa sədaqət simvolu sayırlar. Dövlət isə İdrətin şəhid ruhunun şad olması, yaxınların, doğmaların təsəlli tapması üçün onu Vətən müharibəsində göstərdiyi igidliyini görə "Vətən uğrunda" medali ilə təltif edib.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı xəbər 2021.- 11 mart.- S.15.